2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü İlkin Şahbazovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 30 dekabr 2019-cu il tarixli, 52 saylı müraciət üzrə

**RƏYİ**

Bakı şəhəri 02 yanvar 2020-ci il

Mən, ekspert qrupunun üzvü İlkin Şahbazov 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 85 saylı Şamaxı seçki dairəsindən Sabir bələdiyyəsi üzrə qeydə alınmış namizəd Aliyev Rəşad Qələndər oğlunun 30 dekabr 2019-cu ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsinin 29, 30, 62 saylı seçki məntəqələrində qanun pozuntularının baş verməsi iddiası ilə bağlı Mərkəzi Seçki Komissiyasına daxil olmuş 30 dekabr 2019-cu il tarixli, 52 saylı müraciətini nəzərdən keçirərək müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq tərtib edilərək müəyyən edilmiş müddətdə verildiyindən müvafiq rəy verilməsi üçün tərəfimdən icraata qəbul edilmişdir.

Ərizəçi R.Q.Aliyev 02 yanvar 2020-ci il tarixdə Mərkəzi Seçki Komissiyasına yazılı ərizə ilə müraciət edərək həmin şikayətindən imtina etdiyini bildirmişdir. Buna görə də 30 dekabr 2019-cu il tarixli 52 saylı müraciətin araşdırılmasına xitam verilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci hissələrinə əsasən **rəyə gəldim:**

1. 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 85 saylı Şamaxı seçki dairəsindən Sabir bələdiyyəsi üzrə qeydə alınmış namizəd

Aliyev Rəşad Qələndər oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 30 dekabr 2019-cu il tarixli 52 saylı müraciətinin araşdırılmasına xitam verilsin.

2. Bu rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü İlkin Şahbazov